AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 37 (1437), 1 - 7 oktyabr 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*

A.Ə.İbrahimova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Aydın Əli oğlu İbrahimova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 27 sentyabr 2019-cu il.*

## Azərbaycan nümayəndə heyəti Dohada keçirilən Konqresdə iştirak edib

Qətərin paytaxtı Dohada Balkan Atletika Assosiasiyasının Konqresi keçirilib. Konqresdə ölkəmizi Azərbaycan Atletika Federasiyasının prezidenti Çingiz Hüseynzadə və federasiyanın baş katibi Məhərrəm Sultanzadə təmsil ediblər. Tədbirdə Assosiasiyanın 2019-cu ildəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi dinlənilib. Sonra qurumun rəhbər vəzifələrinə seçkilər keçirilib. Assosiasiya prezidenti Dobromir Karamarinov səsvermə nəticəsində yenidən bu vəzifəyə seçilib. Fateh Çintimar və Slobodan Brankoviç Assosiasiyasının vitse-prezidenti, Florin Florea isə İcraiyyə Komitəsinin üzvü seçiliblər.

Tədbirdə assosiasiyanın 2020-ci il üçün təqvimi təsdiqlənib.




## Gənclər və idman naziri beynəlxalq idman forumuna dəvət alıb

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov Rusiyanın idman naziri Pavel Kolobkov ilə görüşüb.

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, görüşdə nazir Azad Rəhimov ötən ilin sentyabrında imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında" Sazişin uğurla həyata keçirildiyini, bu sənədin idmanın inkişafında müstəsna rol oynadığını diqqətə çatdırıb. Nazir bildirib ki, Saziş ölkələrimizdə idmanın inkişafında, yeni idmançı nəslinin yetişməsində çox böyük rol oynayır. Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin demək olar ki, hər birində Rusiya idmançıları fəal iştirak edir, yüksək pillələrə yüksəlirlər. Gələn ilin Olimpiya ili olacağını nəzər alsaq, bizi daha məsuliyyətli və gərgin il gözləyir.

Yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən P.Kolobkov da 2018-ci ildə Soçidə imzalanmış Sazişin əhəmiyyətindən və ötən ildə qarşılıqlı əməkdaşlıq sayəsində qazanılan uğurlardan söz açıb.

Rusiyalı nazir vurğulayıb ki, 2020-ci ilin avqustunda Kazanda ilk dəfə olaraq MDB ölkələrinin idman yarışları keçiriləcək. Gənclər arasında keçiriləcək bu yarışa 2 mindən çox qonaq qatılacaq.

P.Kolobkov deyib: "Azərbaycan sözün əsl mənasında idman ölkəsinə çevrilib. İstər idman infrastrukturu, istərsə də, idman yarışlarının təşkili ən yüksək səviyyədədir. Əminik ki, 2020-ci ildə ilk dəfə Kazanda keçiriləcək MDB ölkələrinin idman yarışları azarkeşlərin yaddaşında uzun müddət qalacaq. Əgər 2022-ci ildə baş tutacaq növbəti yarışa ev sahibliyi hüququ Azərbaycana düşərsə həmin turnirin yüksək səviyyədə təşkil olunacağını indidən deyə bilərik. Hazırda əsas məqsədlərdən biri MDB ölkələrinin idman yarışlarının keçirilməsində xüsusi komandanın qurulması və tədbirlər planının işlənib hazırlanmasıdır".

Görüşün sonunda P.Kolobkov Azərbaycanın gənclər və idman naziri A.Rəhimovu oktyabrın 10-11-də Rusiyanın Nijni-Novqorod şəhərində təşkil olunacaq "Rusiya idman ölkəsi" beynəlxalq idman forumuna dəvət edib.

## MOK baş katibinin müavini Avropa Gənclər Olimpiya Festivalı Komissiyasının iclasında

İtaliyanın paytaxtı Romada Avropa Olimpiya Komitəsinin Avropa Gənclər Olimpiya Festivalının Komissiyasının iclası keçirilir. Sentyabrın 29-dan oktyabrın 1-dək keçirilən tədbirdə komissiyanın üzvü və Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini Azər Əliyev iştirak edir.

Xatırladaq ki, bir müddət əvvəl Azər Əliyev Serbiyanın paytaxtı Belqradda təşkil olunan Avropa Olimpiya Komitəsinin 39-cu seminarında Avropa Gənclər Olimpiya Festivalı Komissiyasının üzvü seçilmişdi.

## Gimnastımız Dünya kuboku yarışlarının qalibi olub

Rusiyanın Xabarovsk şəhərində batut gimnastikası və tamblinq üzrə dünya kuboku yarışları keçirilib. Turnirin tamblinq üzrə yarışlarında yeganə təmsilçimiz Mixail Malkin ən yüksək göstəriciyə nail olub. Gimnastımız bütün rəqiblərini geridə qoyaraq, 76.300 xalla qızıl medal qazanıb.

## Olimpizm

### Pekin-2022 Olimpiadasının talismanları ictimaiyyətə təqdim olunub

2022-ci ildə Pekində keçiriləcək XXIV Qış Olimpiya Oyunlarının talismanları ictimaiyyətə təqdim olunub. Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax talismanların təqdimatı ilə bağlı Pekində keçirilən təntənəli mərasimdə iştirak edib. Olimpiadanın talismanları uçan və şən panda Bin Dundun və Çin fənarı Cyue Junjundur. Təntənəli açılış mərasimində çıxış edən Tomas Bax deyib: "Baxdığımız hər yerdə Pekin-2022 Olimpiadası ilə bağlı böyük coşqu görmək mümkündür. Talismanlar milli ornamentləri özündə əks etdirir və inanıram ki, onlar Pekin-2022 Olimpiya Oyunlarının gözəl təmsilçiləri olacaqlar. Bu mərasim bir daha göstərdi ki, Çində idmanı çox sevirlər, xüsusilə də gənclər". Pekinə səfəri zamanı BOK prezidenti Pekin-2022 Olimpiadası Təşkilat Komitəsinin rəhbəri Tsay Tsi ilə görüşüb. Onlar olimpiadaya hazırlıq məsələləri barədə müzakirələr aparıblar. Qeyd edək ki, XXIV Qış Olimpiya Oyunları 2022-ci ildə fevralın 4-dən 20-dək Pekində keçiriləcək. Pekin həm yay, həm də qış olimpiya oyunlarına ev sahibliyi edən ilk şəhər olacaq. Çinin paytaxtı yay Olimpiadasını 2008-ci ildə qəbul edib.



* * *

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax Çinə səfəri çərçivəsində bir sıra görüşlər keçirib. Tomas Bax Çin Milli Olimpiya Komitəsinin (MOK) prezidenti Qou Çjnben, Beynəlxalq Antidopinq Agentliyinin (WADA) vitse-prezidenti, ikiqat Olimpiya çempionu Yan Yanq, Çinin tanınmış şirkətlərindən olan HYX qrupunun rəhbəri Lyu Jyutsi və Çin Kommunist Partiyasının üzvü, Xarici işlər üzrə komissiyanın direktoru Yan Tszeçi ilə görüşüb. Görüşdə Pekin-2022 Olimpiya Oyunlarına hazırlıq məsələləri müzakirə olunub. Tomas Bax həm də idman və Olimpiya Hərəkatına öz əl işləri ilə töhfə verən rəssam FanYani "Pyer de Kuberten" medalı ilə mükafatlandırıb.

## Anons

*Velosiped üzrə Tokio-2020 Olimpiadasına daha 20 lisenziya xalı əldə edilib* Səh. 2

Beçikadan qızıl medal Səh. 3

OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü Səh. 4-5

*Yaddaşlarda qalan güləşçi, yaxud kürəyi yerə dəyməyən "Qarabağ pələngi"* Səh. 6

**UEFA Avropa Liqası** **(II tur)**

### "F91 Dudelanj" - "Qarabağ"

**(Lüksemburq)** **(Azərbaycan)**

3 oktyabr. Lüksemburq, "Jozi Bartel" stadionu *Saat 23:00.*

# Gənclər və idman naziri WAKO prezidenti ilə görüşüb

*Ölkəmizdə səfərdə olan Dünya Kikboksinq Assosiasiyası Təşkilatının (WAKO) prezidenti Roy Beyker Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov ilə görüşüb. A.Rəhimov görüşdə ölkəmizdə idmanın kütləviliyinin artırılması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verib. Nazir Azərbaycanda kikboksinqə böyük marağın olduğunu və gənclər arasında çox populyarlaşdığını qeyd edib.*



Bildirib ki, ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərinə də böyük diqqət göstərilir. Kikboksinq də həmin idman növlərindən biridir. Ölkəmiz həmişə irimiqyaslı yarışlara yüksək səviyyədə ev sahibliyi edib. İdman infrastrukturunun təkmilləşdirilməsi ən prioritet məsələlərdən biridir. Bütün bunlar ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin nəticəsində gerçəkləşib. Dövlətimizin başçısı İlham Əliyev həmişə idmançıların yanında olub, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mütərəqqi addımlar atır.

R.Beyker qeyd edib ki, Azərbaycan mötəbər yarışlara yüksək səviyyədə ev sahibliyi bacarığı ilə həmişə seçilir. Hazırda kikboksinqin 2023-cü ildə Polşanın Krakov şəhərində keçiriləcək III Avropa Oyunlarının proqramına salınması dair Avropa Olimpiya Komitəsi ilə danışıqlar aparılır.

Bakının 2015-ci ildə yüksək səviyyədə ev sahibliyi etdiyi birinci Avropa Oyunlarının möhtəşəm açılış və bağlanış mərasimlərinin uzun müddət yaddaşlarda qaldığını vurğulayan qonaq deyib ki, əldə etdiyiniz uğurlar Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasına imkanlar açır.

Sonra qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Pəhləvanlarımız dünya kuboku yarışlarına vəsiqə qazanıblar

Güləşçilərimiz Nur-Sultanda keçirilən lisenziya xarakterli dünya çempionatında 6 medal qazanıblar. Yunan-Roma güləşində Rafiq Hüseynov (82 kq) gümüş, Eldəniz Əzizli (55 kq) bürünc, qadın güləşində Mariya Stadnik (50 kq) qızıl, Elis Manolova (65 kq) bürünc, sərbəst güləşdə isə Cəbrayıl Həsənov (79 kq) və Şərif Şərifov (97 kq) gümüş medala sahib olublar. Ümumilikdə 1 qızıl, 3 gümüş və 2 bürünc medal əldən edən ölkəmiz medalların əyarına görə 5-ci yeri tutub. Olimpiadaya iki çəkidə - qadın güləşində 50, sərbəst güləşdə isə 97 kiloqram çəki dərəcəsində lisenziya əldə edilib. Qadın güləşi komandamız 48 xalla komanda hesabında 8-ci yeri tutub. Bu isə komandamıza gələn ay Yaponiyada keçiriləcək dünya kuboku yarışlarında iştirak hüququ verib. 50 xalla 7-ci pillədə qərarlaşan sərbəst güləş üzrə millimiz də analoji yarışa vəsiqə qazanıb.



# Millimiz Avropa Olimpiya təsnifat turnirində mübarizə aparacaq



Voleybol üzrə qadınlardan ibarət Azərbaycan millisi Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə əldə etmək üçün gələn il yanvarın 7-12-də Avropa qitəsi üzrə keçiriləcək təsnifat turnirində iştirak edəcək.

Azərbaycan Voleybol Federasiyasından "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, turnir Hollandiyanın Apeldorn şəhərində təşkil olunacaq.

Tokio-2020-yə vəsiqə əldə etmək üçün 8 ən yaxşı komanda mübarizə aparacaq. Bu "səkkizlik" sonuncu Avropa çempionatının nəticələrinə əsasən dəqiqləşib. Milli komandamız qitə birinciliyini 10-cu yerdə başa vursa da, artıq vəsiqə qazanmış Rusiya, Serbiya və İtaliyanın ön sıralarda qərarlaşması voleybolçularımızın Apeldorna yolunu açıb.

Nəticədə turnirdə yeganə lisenziyaya Azərbaycan və meydan sahibi Hollandiya ilə yanaşı, Türkiyə, Almaniya, Bolqarıstan, Polşa, Belçika və Xorvatiya iddia edəcəklər.

Kişi komandaları arasında keçiriləcək təsnifat turnirində isə Azərbaycan millisi mübarizə aparmayacaq. Həmin turnir yanvarın 5-10-da Almaniyanın paytaxtı Berlində baş tutacaq. Burada ev sahibləri ilə yanaşı, Belçika, Bolqarıstan, Çexiya, Fransa, Hollandiya, Serbiya və Slovakiya güclərini yoxlayacaq.

Kişilərin yarışında Yaponiya, Braziliya, ABŞ, İtaliya, Polşa, Rusiya və Argentina, qadınların mübarizəsində isə Yaponiya, Serbiya, Çin, ABŞ, Braziliya, Rusiya və İtaliya Tokio-2020-də iştirak hüququ qazanıb. Son 5 yer isə qitə təsnifat turnirlərində sahiblərini tapacaq.

# Velosiped üzrə Tokio-2020 Olimpiadasına daha 20 lisenziya xalı əldə edilib

Velosipedçilər Tokio-2020 Yay Olimpiya Oyunlarına daha 20 lisenziya xalı qazanıblar. Təmsilçilərimiz lisenziya xallarını Türkiyənin Konya şəhərində keçirilən üç mərhələli "Tour of Mevlana" turnirində toplayıblar. Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı veloturunun ümumi təsnifatında Samir Cəbrayılov beşinci yeri tutaraq 15 lisenziya xalı əldə edib. Yeddinci pillədə qərarlaşan




Elçin Əsədov isə ölkəmizin aktivinə 5 lisenziya xalı yazdırıb. Turnirin ilk üç pilləsində Türkiyə velosipedçiləri, dördüncü yerdə isə Ukrayna təmsilçisi qərarlaşıb.

# Yığma komandamız İspaniyada

Yeniyetmə taekvondoçulardan ibarət Azərbaycan yığma komandası baş məşqçi Səbuhi Zülfüqarov və böyük məşqçi Sənan Həşimovun rəhbərliyi ilə İspaniyanın Marina Dor şəhərinə yollanıb.

Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, komandamız oktyabrın 1-3-də keçiriləcək Avropa birinciliyində 11 idmançı ilə təmsil olunacaq. Yığmanın məşqçi heyəti yarışda altı oğlan və beş qız taekvondoçuya şans verəcək.

Millinin heyətində oğlanlardan Şamil Mirzəyev (33 kq), Nihad Məmmədzadə (37 kq), Pünhan Mürsəlov (41 kq), Kənan Əmiraslanov (45 kq), Nizami Hacıyev (53 kq) və Asim Əlimov (63 kq yuxarı) yer alıblar. Qızlardan isə ölkəmizi Zemfira Həsənzadə (29 kq), Fatimə Həsənova (37 kq), Leyla Bəşirova (47 kq), Səmmərуh Osmanova (51 kq) və Mədinə Kərimova (59 kq-dan yuxarı) təmsil edəcəklər.




# Yeniyetmə cüdoçularımızdan tarixi nəticə

Qazaxıstanın Almatı şəhərində keçirilən cüdo üzrə yeniyetmələr arasında dünya birinciliyinə yekun vurulub. 61 ölkədən 460 (254 oğlan, 206 qız) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Ölkəmizi yarışda 18 (10 oğlan, 8 qız) cüdoçu təmsil edib. Çempionatın fərdi yarışlarında Azərbaycan cüdoçuları iki medal qazanıblar. Təmsilçilərimizdən 60 kq çəki dərəcəsində mübarizə aparan Kamran Süleymanov mundialın gümüş medalını qazanıb. Cüdoçumuz Vüqar Talıbov bürünc medala layiq görülüb. 73 kq çəki dərəcəsində mübarizə aparan cüdoçumuz 3-cü yer uğrunda qarşılaşmada İtaliya təmsilçisi Luicci Centraçioya qalib gəlib. Bu, millimizin Almatı şəhərində qazandığı 2-ci medaldır.

Çempionatın sonuncu günündə cüdoçular komanda yarışlarında mübarizə aparıblar. Millimiz tarixdə ilk dəfə olaraq dünya birinciliyinin komanda yarışlarının gümüş medalını qazanıb. 1/8 finalda Çin Taypeyinə, 1/4 finalda isə Avstraliya yığmasına inamla qalib gələn cüdoçularımız yarımfinalda Rusiya millisi ilə qarşılaşıblar. Gərgin keçən görüşdə güclü rəqibini 4:3 hesabı ilə məğlub edən Azərbaycan komandası tarixində ilk dəfə olaraq finala çıxıb.

Həlledici qarşılaşmada Yaponiya cüdoçularına uduzan milli komandamız dünya birinciliyində ikinci yeri tutub.

# Lüksemburqdan 4 medal

Lüksemburqda keçirilən cüdo üzrə Avropa açıq kuboku yarışına yekun vurulub. 47 ölkədən 354 (208 oğlan, 146 qız) idmançının iştirak etdiyi yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayıblar. Komandamız turnirdə 20 (14 oğlan, 6 qız) idmançı ilə mübarizə aparıb. Cüdoçularımız Avropa açıq kubokunu 4 (1 qızıl, 3 bürünc) medalla başa vurublar. Turnirin ilk günündə Aleksandra-Larisa Florian (57 kq) və Rəşad Yelkiyev (60 kq) 3-cü yeri tutublar. Beynəlxalq turnirin son günündə kişilər arasında +100 kq çəki dərəcəsində mübarizə aparan İmran Yusifov bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülüb. Komandamızın digər üzvü Aslan Mirzəyev (100 kq) Avropa kubokunun bürünc medalına sahib olub.

Açıq Avropa kubokunda 4 medal qazanan cüdoçularımız ümumi komanda hesabında dördüncü yeri tutublar.

# Dəri əlcək ustalarımız Dağıstanda uğurla yarışıblar



Dağıstanın Aquşa kəndində azərbaycanlı boksçu, üçqat dünya çempionu, London Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Məhəmmədrəsul Məcidovun şərəfinə turnir keçirilib. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, sentyabrın 26-dan 29-dək yeniyetmə boksçular arasında təşkil edilən yarışda ölkəmizi məşqçi Tofiq Babayevin rəhbərliyi altında Baku Fayt Lab (BFL) klubunun yetirmələri təmsil ediblər.

Boksçularımız turnirdə uğurla çıxış edərək 11 medal qazanıblar. Yığmanın üzvlərindən Tacı Tağızadə (57 kq), Həsən Məlikov (49 kq), Ənvər Babayev (66 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Mirabbas Şahsuvarlı (60 kq), Rəsul Məmmədov (54 kq) yalnız finalda məğlub olaraq gümüş medal qazanıblar. Emin İbrahimov (60 kq), Zəlimxan Süleymanov, Elmar Abbasov (hər ikisi 56 kq), Hikmət Tağızadə (75 kq), Türkeş Mustafayev (69 kq) və Asif Hüseynov (63 kq) isə bürünc medala layiq görülüblər.

*Azərbaycanın qadınlardan ibarət sablya üzrə milli komandasının üzvü Anna Başta Belçikanın Gent şəhərində keçirilən "Satellite" seriyalı "Flemish Open" turnirinin qalibi olub.*



# Beçikadan qızıl medal

Azərbaycan Qılıncoynatma Federasiyasından verilən məlumata görə, qrup mərhələsində keçirdiyi 6 görüşü qalib başa vuran A.Başta, mütləq nəticə ilə birbaşa turnirin 1/16 final mərhələsinə yüksəlib. Bu mərhələdə kolumbiyalı Quarin Lopez (15:5) üzərində inamlı qələbə qazanan sablyaçımız, 1/8 finalda belçikalı Jolien Korteyni 15:11 hesabı ilə məğlub edib. Turnirin 1/4 finalında Azərbaycan dueli baş tutub. Qrup mərhələsini 5 qələbə ilə başa vuraraq pley-offda Almaniya təmsilçisi Liza Ruetgers (15:4) və honkonqlu Au Sin Yinq (15:13) üzərində qələbə qazanan Sevil Bünyatova Anna Baştaya rəqib olub. Maraqlı mübarizə şəraitində keçən görüşdə Başta S.Bünyatovanı 15:11 hesabı ilə məğlub edib. A.Başta yarımfinalda argentinalı Maurise Perezə heç bir şans verməyib -15:4. Finalda Hindistan idmançısı Anandha Çadalavadaya 15:10 hesabı ilə qalib gələn Anna Başta qadın sablyaçıların şəxsi yarışında "Flemish Open" turnirinin qızıl medalını qazanıb.

Digər qadın sablyaçılarımızdan qrupda qazandığı 4 qalibiyyətlə pley-offa yüksələn Valeriya Bolşakova 1/16 finalda Böyük Britaniya təmsilçisi Tamara Karnaka (15:8) qalib gəlsə də, 1/8 finalda argentinalı Maurise Perezə (12:15) uduzub. Qrupu 5 qələbə ilə başa vuran Səbinə Kərimova isə 1/16 finalda italiyalı Fusko Paqanoya (15:13) qalib gəlib. Kərimova 1/8-də digər italiyalı sablyaçı Eloisa Passaroya (14:15) məğlub olub. Qrupu 3 qələbə ilə bitirən Aysel Əhədova da pley-offa adlamağı bacarıb. Əhədova 1/32 finalda Erin Konkoranı (15:11) üstələsə də, 1/8-də turnirin gümüş medalçısı Anandha Çadalavadaya (Hindistan) (3:15) uduzub.

Kişi sablyaçıların şəxsi mübarizəsində Cavanşir Ağakişiyev qrupda qazandığı 4 qələbə sayəsində pley-offa yüksəlsə də, burada Avstraliya qılıncoynadanı Dik Jadrin (14:15) qələbə qazanıb.

# "Qara Qaplan" beynəlxalq turnirin qalibidir

*Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş karate üzrə ənənəvi "Olimpiya ümidləri" beynəlxalq turniri keçirilib. "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən yarışın təntənəli açılış mərasimində əvvəlcə iştirakçı komandaların üzvləri "Heyratı" musiqisinin sədaları altında zala daxil olublar.*

*Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Açılış mərasimində çıxış edən Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov bildirib ki, turnirin "Olimpiya ümidləri" devizi altında təşkil olunması təsadüfi deyil. Turnirin qalibləri arasından gələcəkdə ölkəmizi Olimpiya Oyunlarında təmsil edəcək idmançılar yetişəcəklər. "Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ölkəmiz dəfələrlə irimiqyaslı idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. 2015-ci ildə ilk Avropa Oyunlarında, iki il sonra təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarında karateçilər də mübarizə aparıblar. Bütün bunlar dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda karatenin inkişafına göstərdiyi diqqət və qayğının nümunəsidir", - deyə Y.Bəşirov bildirib.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov ölkəmizdə karate üzrə daha bir beynəlxalq yarışın keçirilməsinin idmanın bu növünün respublikamızda inkişafına mühüm töhfə verəcəyini vurğulayıb. O, turnirdə iştirak edən komandalara uğurlar arzulayıb.

Tədbirin təşkilatçılarından olan Veteran Tankçılar Birliyinin sədri Hacı Əzimov Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov ilə bağlı xatirələrini bölüşüb. H.Əzimov igid tankçının xatirəsinə olunan beynəlxalq turnirin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.



Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev Milli Qəhrəman Albert Aqarunovun xatirəsinə həsr olunan beynəlxalq turnirin təşkilinə görə yəhudi icmasının adından minnətdarlığını ifadə edib. O, Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan tolerantlıq siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində ölkəmizin dünyada tolerantlıq məkanı kimi tanındığını ifadə edib

Sonra Azərbaycanda idmanın, hərbi vətənpərvərlik ruhunun və multikulturalizmin inkişafındakı xidmətlərinə görə Gənclər və İdman naziri Azad Rəhimovun, nazirliyin idman şöbəsinin müdiri Fərid Mansurovun, Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayevin, Veteran Tankçılar Birliyinin sədri Hacı Əzimovun və digər veteran tankçıların xatirə medalları ilə təltif olunduqları diqqətə çatdırılıb.

Çıxışlardan sonra Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsinə həsr edilən vətənpərvərlik mövzusunda mahnılar ifa olunub, xüsusi təyinatlılar nümunəvi çıxışlar yerinə yetiriblər. Sonra yarışlara start verilib.

Gənclər və İdman Nazirliyi, Azərbaycan Karate-Do Federasiyaları Assosiasiyası, Azərbaycan Milli Karate Federasiyası, Veteran Tankçılar Birliyi və Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının birgə təşkil etdiyi beynəlxalq xatirə turnirində 10-dan artıq ölkədən 6-13 yaşlı 800 karateçi mübarizə aparıb.

Turnirdə birinci yeri "Qara Qaplan" komandası tutub. "Zirvə" komandası ikinci pillədə qərarlaşıb. "Arpaçay" karate klubu isə yarışı üçüncü yerdə tamamlayıb.

# Qran-pri turnirinə yekun vurulub

Novxanı Atıcılıq Mərkəzində kompakt-sportinq üzrə Qran-Pri turniri keçirilib. Turnirin açılış mərasimində əvvəlcə iştirakçı komandaların keçidi olub.

Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidenti Rasim Rzayev tədbirdə çıxış edərək ölkəmizdə idmanın digər növləri kimi, atıcılığın da inkişaf etdiyini bildirib.

Azərbaycanın Gənclər və İdman Nazirliyinin nümayəndəsi Ülviyyə Hacıyeva kompakt-sportinq üzrə Qran-Pri turnirinə marağın ildən-ilə artdığını qeyd edib. O, komandamızın əldə etdiyi nailiyyətlərin daha da artacağına əminliyini vurğulayıb.

Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyasının vitse-prezidenti Pərvin Şahbazov ölkəmizdə bədən tərbiyəsi və idmana göstərilən diqqət və qayğıdan danışıb. O, qeyd edib ki, paytaxt Bakıda, eləcə də bölgələrdə inşa edilən Olimpiya İdman kompleksləri, müxtəlif təyinatlı idman qurğuları idmanın daha sürətli inkişafına şərait yaradıb.



Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra yarışa start verilib.

Qran-pridə Azərbaycan komandası ilə yanaşı, Rusiya, ABŞ, Belarus, Küveyt, Litva və Qazaxıstan yığmaları da qüvvələrini sınayıblar. 3 gün davam edən turnirdə 200 hədəfə atış yarışlarında ən yüksək nəticə göstərən Azərbaycan komandası qalib adını qazanıb. Qazaxıstan atıcıları ikinci, Rusiya yığması isə üçüncü yeri tutublar.

# Məhəllə idman növləri üzrə yarışlarla bağlı müzakirələr aparılıb

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) ilə Azərbaycan Məktəb İdmanları Federasiyası arasında imzalanmış niyyət protokoluna əsasən, keçirilməsi nəzərdə tutulmuş məhəllə idman növləri üzrə məktəblər arasında Bakı şəhər turniri, eləcə də qızlar və oğlanlar arasında stritbol, stolüstü tennis, atletika, şahmat, dama, oğlanlar arasında məhəllə futbolu yarışlarının təşkilinə dair geniş müzakirələr aparılıb.

Baş İdarənin sektor müdiri Samir Salehov, Azərbaycan Məktəb İdmanları Federasiyasının baş katibi Pərvin Mehdiyev yeni turnir haqqında ətraflı məlumat verib. Rayon və şəhər (final) mərhələləri üzrə keçiriləcək yarışların qrafikinin qısa müddətdə hazırlanaraq təsdiq olunması müvafiq gənclər və idman idarələrinə tapşırılıb.

# Azərbaycanda triatlonun inkişafı iclasda müzakirə olunub

*Azərbaycan Triatlon Federasiyasının (ATF) İcraiyyə Komitəsinin iclası keçirilib. İclasda yığma komandanın qazandığı nəticələr, gənclərdən ibarət millimizin fəaliyyəti, respublikada triatlonun inkişafı müzakirə edilib.*

Federasiyanın prezidenti Azər Məhərrəmov cari ilin komandamız üçün uğurlu keçdiyini vurğulayıb. Bildirib ki, cari ildə idmançılarımızın aktivində üç medal var. Yığma komandamızın lideri Rostislav Pevtsov Avropa çempionatında və qitə kuboku yarışlarında gümüş medal əldə edib. Kseniya Levkovskaya isə açıq Asiya kuboku turnirində qızıl medal qazanıb.

Qeyd edilib ki, bu ildən başlayaraq triatlon komandamız Olimpiya marafonuna qatılıb. İdmançılarımız Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün təsnifat turnirlərində iştirak edirlər. Yay Olimpiya Oyunlarından əvvəlki iki il ərzində triatlonçular dünya və Avropa çempionatları, dünya kuboku yarışları da daxil olmaqla çıxış etdikləri bütün turnirlərdə Olimpiadaya lisenziya xalları toplayırlar.

Azərbaycanda triatlon idmanının inkişafı keyfiyyətcə yeni səviyyəyə qalxır. Oktyabrın 6-da Gənclər və İdman Nazirliyinin və Azərbaycan Triatlon Federasiyasının təşkilatçılığı ilə "Baku Triathlon 2019" adlı yarış keçiriləcək. Yarış sprint məsafəsində təşkil olunacaq. İştirakçılar 0,5 kilometr üzmə, 20 kilometr məsafəyə velosiped və 5 kilometr məsafəyə qaçış yarışlarında mübarizə aparacaqlar. Müxtəlif kateqoriyalarda keçiriləcək turnirdə komanda estafetində də qaliblər mükafatlandırılacaq.

# Azərbaycanlı nərd ustaları "Krım payız festivalı"nda ikinci oldular

Bu yaxınlarda Ukraynanın Evpatoriya şəhərində nərd yarışı üzrə "Krım payız festivalı" keçirilib. 40-dan artıq ölkəni təmsil edən nərd ustalarının mübarizəsində ölkəmiz üç nəfərlə təmsil olunub. 10 günə yaxın davam edən yarışda təmsilçilərimiz nərdin uzun və döymə növlərində iştirak ediblər. Festivalda komandamızın üzvü Aslan Dəmirov nərdin uzun növü üzrə yarışlarda ikinci yerə layiq görülüb. Sankt-Peterburqdan yaşayan, lakin ölkəmizi təmsil edən Elxan Atayev isə döymə növündə eyni nəticəni göstərib. Bununla da Azərbaycanın nərd ustaları "Krım payız festivalı"nı 2 gümüş medalla başa vurublar.



Beynəlxalq yarışda uğurla çıxış edən komandamızın üzvü Aslan Dəmirov bu günlərdə redaksiyamızın qonağı olub. Qəbələdə yaşayan təmsilçimiz yarışla bağlı təəssüratlarını "Olimpiya dünyası" qəzeti ilə bölüşüb.

"Bildiyiniz kimi, yarışda Azərbaycanı 3 nərd ustası təmsil edirdi. Sevindirici haldır ki, 3 iştirakçıdan ikisi mükafatçılar sırasında yer aldı. Yarışın mükafatlandırma mərasimində kubok və qiymətli hədiyyələrlə təltif olunduq. Bundan başqa mənə Rusiya Yazıçılar İttifaqının üzvü, "Lermontov" ordeni mükafatçısı Viktor Paapunun "Nərd" kitabı da təqdim edildi. Yeri gəlmişkən qeyd edim ki, həmin kitabda dünyanın ən yaxşı "nərdçi"ləri barəsində məlumat yer alıb. Bu kitabında mənim haqqımda da qısa məlumata rast gəlmək olar", - deyə Aslan Dəmirov deyib.

Azərbaycanın ən güclü nərd ustalarından biri olan Aslan Dəmirovun uğuru bununla bitmir. O, müxtəlif illərdə ölkədaxili turnirlərlə yanaşı, beynəlxalq turnirlərdə də qalib və mükafatçılar sırasında yer alıb. "Bu günə qədər beynəlxalq turnirlərdə iştirak edərək ölkəmizi layiqincə təmsil etmişəm. 8 dəfə fəxri kürsünün ən yüksək pilləsində yer almışam. Bundan başqa 15-dəfə mükafatalayiq nəticələr göstərmişəm. Beynəlxalq turnirlərlə yanaşı, ölkədaxili yarışlarda da uğurlarım kifayət qədərdir", - deyə o bildirib.

# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü




*(əvvəli qəzetimizin 35-ci sayında)*

***OCEP - Olympic Culture and Education Programme - Olimpiya mədəniyyəti və təhsili proqramıdır. Azərbaycan Milli Olimpiya Komitəsinin təşkil etdiyi bu proqram Beynəlxalq və Avropa Olimpiya Komitələri tərəfindən bəyənilmiş və onun Avropa Gənclər Olimpiya Festivalı ərəfəsində və dövründə həyata keçirilməsi nəzərdə tutulmuşdu. Proqram üzrə işlər 2018-ci ildən başlanmış, 2019-cu ilin iyulunda tamamlanmışdır. Milli Olimpiya Komitəsinin nəşriyyat və informasiya idarəsinin müdiri Cəmaləddin Rəhmanovun MOK-un marketinq idarəsinin müdiri Mehman Kərimovla söhbətində proqramın təşkili, irsi və gələcəkdə Olimpiya Hərəkatı çərçivəsində davam etdirilməsi, beynəlxalq status alma potensialı haqqında maraqlı məqamlara toxunulmuşdur.***




**Cəmaləddin Rəhmanov (Milli Olimpiya Komitəsinin nəşriyyat və informasiya idarəsinin müdiri)**:

- Mehman müəllim, ötən söhbətimizdə OCEP proqramının təşkili və həyata keçirilməsinin ilkin mərhələsinin, demək olar ki, bütün əsas hazırlıq işlərindən danışdıq. Yəni proqramda iştirak edəcək Azərbaycan və Avropa dövlətlərindən olan məktəblərin seçimi, bu məktəblərin bir-biri ilə əlaqələndirilməsi, qardaşlaşması, tərəfdaşlar, proqram üçün ekspertlər qrupunun təyin olunması və onların fəaliyyəti kimi məsələlərdən bəhs etdik. Hesab edirəm ki, bu işlərdən sonra proqram üzrə bütün iştirakçılar, tərəfdaşlar arasında kommunikasiyanın yaradılması, məktəblərdə tədbirlərin hazırlanması və onlara start verilməsi, Olimpiya Hərəkatı və mədəniyyət üzrə təhsilin başlanması gündəmdə ən vacib olanları əhatə etmişdir.



**Mehman Kərimov (Milli Olimpiya Komitəsinin marketinq idarəsinin müdiri):** Qeyd edim ki, proqramın həyata keçirilməsi prosesinin bu dövründə, əsas tərəfdaşlarımızın əhatə dairəsi genişləndi. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, BOK-un Olimpiya Həmrəyliyi İdarəsi, AOK ilə yanaşı, AYOF Əməliyyat qrupu və xarici ölkələrin Azərbaycandakı səfirlik və konsulluqlarının bir qismi də bizimlə ciddi əməkdaşlıq etməyə başladı. Qeyd edildiyi kimi OCEP fəaliyyətinə dostluq və qardaşlaşmanı reallaşdırma ilə başlamalı idi. OCEP-ə fəal qoşulacaq 49 Bakı məktəbi və onlarla əlaqədə olacaq 48 Avropa ölkəsinin məktəblərinin siyahısı müəyyənləşdirilmişdi. 2019-cu il fevralın 6-da püşkatma yolu ilə qardaşlaşan məktəblər təyin edildi. Püşkatmanın nəticələrinə görə, 23-saylı məktəb Ukrayna, 6 saylı məktəb Böyük Britaniya, 2 saylı məktəb Latviya, 132-134 saylı məktəb Fransa, 189-190 saylı məktəb İsveç, 111 saylı məktəb Bolqarıstan ilə qardaşlaşdırıldı. Bundan sonra ekspertlər qrupumuz seçilmiş Azərbaycan məktəblərində proqram tədbirlərinin hazırlanmasına, xarici məktəblərlə kommunikasiyanın qurulmasına cəlb olundu.

OCEP Milli Olimpiya Komitəsinin fəaliyyətdə olan sosial platformasının diqqət mərkəzində idi. Bu həm kommunikasiyanın, həm də məlumatların yayılmasında əhəmiyyətli rol oynayırdı. Bu dövrdə seçilmiş məktəblərin sayt və feysbukların fəaliyyətinə xüsusi yardım göstərdik. O yerdə ki, bunlar yox idi, yaradıldı. Eyni zamanda proqramın özünün saytı da hazırlandı və fəaliyyətə başladı.

Deyə bilərəm ki, bununla da OCEP proqramı çərçivəsində Azərbaycan və Avropa məktəbləri arasında distant əlaqələri təşkil edə bildik və bu, işimizin ən vacib istiqamətlərindən biri idi. Çünki OCEP-in qarşıya qoyduğu əsas vəzifələrə aşağıdakılar daxil idi: 1) Avropa ölkələrindən və Azərbaycandan seçilmiş məktəblər arasında ünsiyyət yaratmaq (twinning); 2) qardaşlaşmış (twin) məktəblərin məlumat və təcrübə mübadiləsi üçün xüsusi təyinatlı, multilinqivistik sosial media platformasını yaratmaq və onu idarə etmək; 3) Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalını Azərbaycan və Avropa məktəblərinin vasitəsilə təşviq etmək; 4) Olimpizm və Olimpiya dəyərlərini təbliğ etmək; 5) qardaşlaşmış məktəblərdə müvafiq ölkələrin mədəniyyətini qarşılıqlı şəkildə öyrənmək.




Sadaladıqlarımın içində Azərbaycan məktəbinin qardaşlaşdığı təhsil ocağının təmsil etdiyi ölkənin tarixi, coğrafiyası, mədəniyyəti, Olimpiya Hərəkatı ilə bağlı məlumatları toplamaq, öyrənmək və bu materialları təqdim etmək, həmçinin qardaş xarici məktəbə Azərbaycan haqqında məlumat vermək məsələsi bizim üçün çox önəmli idi. Oxşar və ya eyni fəaliyyət xarici məktəblərdə də getməli idi. Bu prosesin həm mədəniyyət, həm də təhsil tərəfləri diqqəti cəlb edir. Azərbaycan məktəbinin şagirdləri qardaşlaşdıqları məktəbin təmsil etdiyi ölkənin coğrafiyası, tarixi, ədəbiyyatı, mədəniyyəti və s. haqqında biliklər alır, müxtəlif mənbələrdən bu barədə məlumatlar toplayır, onların nümayişi üçün tədbirlər hazırlayırdı. Orta məktəblərin müvafiq fənn müəllimlərinin işə qoşulması məlumatlanma və öyrənmə prosesinə xeyli dərəcədə təkan verdi. Əldə olunan material və məlumatlar məktəb tədbirlərinin hazırlanması üçün də əhəmiyyətli idi.

**C.R.:** Sizin dedikləriniz proqramın layihəsindəki bəzi məqamları yadıma saldı. Mənə elə gəlir ki, proqramın layihəsində onun üç mərhələsi və bu mərhələdəki işlərin adları ifadəsini tapmışdır. Birinci mərhələ "Müəyyənləşdirmə və əlaqələndirmə", ikinci mərhələ "Şəbəkələşmə və təlimatlandırma", nəhayət üçüncü mərhələ "Təbliğat və təşviqat" adlandırılmışdır. Yeri gəlmişkən, fikrimcə, III mərhələ "Təhsil, təbliğat və təşviqat" adını alsaydı daha düzgün olardı. Proqramın həyata keçirilməsi prosesində təhsil prioritet istiqamətlərdən biri kimi özünü göstərirdi. Şagirdlər yeni biliklərə yiyələnməklə yanaşı, tədbir iştirakçıları da yeni-yeni məlumatlar almışdılar. Biz ilkin mərhələdən danışırıq. Əslində isə layihədə qeyd edilənləri nəzərə alsaq, I mərhələ -"Müəyyənləşdirmə və əlaqələndirmə", ikinci mərhələ - "Şəbəkələşmə və təlimatlandırma" barədə söhbət etmişik. Proqramın əsas məqsəd və vəzifələri III mərhələdə - "Təhsil, təbliğat və təşviqat" mərhələsində həyata keçirilmişdi.

**M.K.:** Üçüncü mərhələnin adına təhsil sözünün artırılmasına razıyam. Ancaq bir məsələni də qeyd etməyi vacib sayıram. Elə təsəvvür yaranmamalıdır ki, hər mərhələdə təkcə bu mərhələnin adında göstərilən işlər görülmüşdür. Deyək ki, OCEP-in şəbəkələşmə və təlimatlandırma işlərinə start veriləndən sonra seçilmiş məktəblərin layihə üçün yaradılmış xüsusi sosial media platforması vasitəsilə mərkəzləşmiş şəbəkəyə qoşulması təmin edildi, 2 dildə (Azərbaycan və ingilis) fəaliyyət göstərəcək virtual şəbəkə vasitəsilə məktəblərin bir-biri ilə, həmçinin xarici aləmlə əlaqə və ünsiyyəti bərpa olundu. Milli Olimpiya Komitəsi bu şəbəkə vasitəsilə AYOF və Olimpiya hərəkatına dair təlimatları, həmçinin Olimpiya tədrisi ilə bağlı məlumatları yaymağa başladı. Təbii ki, mərhələlərə bölgü əsas hədəfi təyin edir. Qrafikə uyğun olaraq biz bu hədəfə çatmağı da planlaşdırmışdıq. Amma bu o demək deyil ki, biz birinci və ya ikinci perspektivdə bizi gözləyən işləri bir kənara qoymuşduq. Xeyr. Elə lap əvvəldən biz III mərhələni necə reallaşdıracağımızı düşünür, müzakirə edir və bu istiqamətdə işlər görürdük. Hansı tədbirlər hazırlanacaq, onların məzmun və mahiyyəti nə olacaq, kimlər iştirak edəcək, nə göstəriləcək, kimlər dəvət olunacaq, tədbir necə qiymətləndiriləcək, nə çatır, nə çatmır və digər bu kimi suallara cavab verəcək işlər həmişə diqqət mərkəzində idi. Ona görə də ekspertlər qrupu ilə mütəmadi fikir mübadiləsi aparılır, direktorlarla görüşlər keçirilir, seminar və müzakirələr təşkil olunurdu. Hesab edirəm ki, püşkatmadan dərhal sonra seçilmiş məktəblərdə hazırlıq işləri başlandı, proqram üzrə fəaliyyət göstərəcək işçi qrupları təyin olundu, şagirdlərin potensialı qiymətləndirildi, xarici ölkə mədəniyyətinin təqdimatında yardımçı ola biləcək valideynlər işə cəlb edildi. Məlumdur ki, bu gün orta məktəblərdə təhsil alan şagirdlər arasında dərsdən əlavə musiqi, rəqs, rəssamlıq, idman və başqa sahələrlə mütəmadi məşğul olanlar az deyildir. Şübhəsiz ki, onların əlavə bilik və bacarıqları təqdimat üçün xüsusi önəm daşıya bilərdi. Ona görə də seçdiyimiz orta məktəblərdə belə əlavə bacarıq sahibi olan şagirdlər də müəyyənləşdirilmişdi. OCEP çərçivəsində əldə etdiyimiz nəticələr bu işin əhəmiyyətini təsdiq etdi. Şagirdlərimizin qardaşlamış məktəbin təmsil etdiyi ölkənin mahnısını oxuması, rəqsini ifa etməsi, ölkənin mənzərəsinin, tarixi abidəsinin rəsmini çəkməsi və bu eksponatların son tədbirdə, Atletlər kəndindəki "Olimpiya mədəniyyəti və idman pavilyonu"nda nümayiş etdirilməsi həm idmançıların, həm də bu pavilyona gələn qonaqların böyük marağına səbəb oldu. Onu da deyim ki, valideyn və şagirdlərin hazırladıqları milli sənət nümunələrində qardaş ölkənin təqdimatı olduqca effektiv təsiri ilə yadda qaldı.



**C.R.:** Siz "marağa səbəb oldu", "yadda qaldı" kimi ifadələrdən istifadə etdiniz. Proqram başlanandan bitənə qədər yalnız MOK-un sosial şəbəkəsi, OCEP saytı deyil, respublikamızın kütləvi informasiya vasitələri də keçirilən tədbirlərlə bağlı müxtəlif məlumatları ictimaiyyətə çatdırdı. Məsələn, qəzetlərdə, saytlarda OCEP-in təqdimatı ilə bağlı belə bir məlumat getmişdir: "Fevralın 21-də Avropa Gənclər Olimpiya Festivalının başlanmasına 150 gün qalması münasibətilə "Hilton" hotelində Olimpiya mədəniyyəti və təhsil proqramının təqdimatı keçirildi. Tədbirdə Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, təhsil naziri Ceyhun Bayramov, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibi Ağacan Abıyev, baş katibin müavini Azər Əliyev, dövlət və hökumət rəsmiləri, həmçinin Avropa ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin təmsilçiləri iştirak etdilər.

Tədbirdə əvvəlcə XV Avropa Gənclər Olimpiya Festivalına, Olimpiya mədəniyyəti və təhsil proqramına həsr olunmuş film nümayiş etdirildi.

*(ardı 5-ci səhifədə)*

(əvvəli 4-cü səhifədə)

# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü

Tədbirin rəsmi hissəsi OCEP-in təşəbbüsçüsü olan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadənin çıxışı ilə başlandı. O, tədbirin Avropa Gənclər Olimpiya Festivalına 150 gün qalmasına həsr olunduğunu qeyd edərək bildirdi ki, Olimpiya Hərəkatı tarixində yeniyetmələrin qitə festivalı üçün ilk dəfə yeni bir layihə əsasında uzunmüddətli xüsusi bir tədbir hazırlanmışdır. Olimpiya mədəniyyəti və təhsil proqramı böyük əhəmiyyət kəsb etdiyini artıq sübuta yetirməkdə, qitədə böyük maraq doğurmaqdadır. Avropanın 25 ölkəsi artıq bu layihəyə qoşulub. "Buna oxşar ilk tədbir 2010-cu ildə Yeniyetmələrin Sinqapur Olimpiya Oyunlarında olmuşdur. Ancaq Avropa festivalları tarixində belə bir layihə ilk dəfə həyata keçirilir. Hesab edirəm ki, xarici ölkələrin diplomatik nümayəndələri öz ölkələrində bu proqramın yayılmasına, gənclərin bu layihəyə cəlb edilməsinə yaxından dəstək verəcəklər".

Gənclər və idman naziri Azad Rəhimov çıxışında Avropa Gənclər Olimpiya Festivalının da ölkəmizdə böyük uğurla keçəcəyinə əmin olduğunu bildirmişdir.

Təhsil naziri Ceyhun Bayramov Olimpiya mədəniyyəti və təhsil proqramının Azərbaycanda idmanın və təhsilin təbliğində mühüm rol oynadığını vurğulamış, bu proqramın əsas məqsədinin Avropa ölkələrində yeniyetmə və gənclər arasında əməkdaşlığın inkişaf etdirilməsi, idmanın, təhsilin, mədəniyyətin, eləcə də Olimpiya Hərəkatının təbliği olduğunu bildirmişdir. Azərbaycan məktəbləri ilə Avropanın digər ölkələrinin məktəbləri arasında qırılmaz bağ yaradacaq bu proqram üzrə işlərin gedişindən danışan nazir demişdir: "Layihə çərçivəsində seçilən 49 məktəbin hər biri Avropanın bir ölkəsinə təhkim olunub. Bakı məktəbləri təhkim olunduqları Avropa ölkəsinin mədəniyyəti, tarixi, milli və müasir idman növlərini öyrənəcək, həmçinin qardaşlaşmış məktəblərə Azərbaycan mədəniyyəti, incəsənəti, idmanı haqqında məlumat vermək imkanı əldə edəcəklər".

**M.K.:** OCEP-in açılışı festivalın başlanmasına 150 gün qalmış baş tutdu. Həmin gün daha bir önəmli hadisə baş vermişdi. Avropa Gənclər Olimpiya Festivalının talismanları - Cırtdan və Bəbir ictimaiyyətə təqdim edilmişdi. Seçilmiş talismanlar ictimaiyyət arasında böyük maraqla qarşılandı. Hesab edirəm ki, Cırtdan və Bəbirin talisman olması OCEP-in iştirakçı məktəbləri üçün daha bir mövzu oldu. Atletlər kəndində OCEP pavilyonunda məktəblilərimiz və müəllimlərimiz gələn qonaqlara talismanlar barədə məlumat verirdi. Talismanlar qardaşlaşmış məktəblərin şəbəkə vasitəsi ilə söhbətlərində də maraqlı mövzulardan birinə çevrilmişdi. OCEP-in açılış mərasimində təşkil olunmuş konsert proqramı da bilavasitə Avropa ölkələrinin mahnı və rəqslərinin təqdimatı şəklində keçdi. Bu musiqi nömrələri də mədəni rəngarəngliyin necə böyük maraq kəsb etdiyini təsdiq etdi. Onu da qeyd edim ki, Azərbaycan Milli Olimpiya Komitəsinin təşəbbüsü, Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun dəstəyi ilə Bakıda təşkil olunan rəqəmsal media və kommunikasiya mövzusunda seminara gəlmiş xarici qonaqlar da açılışda iştirak edirdilər.





Azərbaycan, Türkiyə, Rusiya, Albaniya, Moldova, Ukrayna, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Serbiya və Belarus Milli Olimpiya komitələrinin media və kommunikasiya mütəxəssislərinin qatıldığı seminarın məqsədi sosial media platformaları vasitəsilə Milli Olimpiya Komitələrinin həyata keçirdiyi fəaliyyətləri və tədbirləri təbliğ etməyin yollarını öyrənmək, hazırkı trendlərin istifadəsi, hər bir platformaya uyğun strategiyanın hazırlanmasında innovativ üsulların tətbiq edilməsi idi. Seminara gəlmiş Milli Olimpiya komitələrinin media və kommunikasiya mütəxəssisləri OCEP proqramı ilə yaxından tanış oldular, bu layihə haqqında materialları öz ölkələrində müvafiq sosial şəbəkələrə daxil edilməsi idi. Onlar, həmçinin Bakı məktəbləri ilə qardaşlaşan məktəblərin layihə çərçivəsindəki işlərinə də dəstək verəcəklərini söylədilər. Bu isə OCEP proqramının yalnız Azərbaycan mediasının deyil, xarici kütləvi informasiya vasitələrinin də diqqət mərkəzində olduğunu təsdiq edən faktlardan biridir. AOK-un həftəlik bülletenlərində də OCEP haqqında məlumatlar yayılırdı. Əlbəttə, biz mediadan daha böyük dəstək gözləyirdik.

**C.R.:** Respublikada keçirilən, təşkil olunan hər bir maraqlı tədbir kütləvi informasiya vasitələrimizdə geniş təbliğ olunmalı, jurnalistlərimiz bu cür işləri beynəlxalq səviyyədə də, yəni xarici informasiya mənbələrində də yaymağa çalışmalıdırlar. Hesab edirəm ki, OCEP haqqında bu cür materiallar kifayət qədər olmalıdı. OCEP möhtəşəm və son dərəcə maraqlı bir proqram idi və onun beynəlxalq səviyyədə tətbiqi mümkün və lazımlıdır. Düşünürəm ki, Azərbaycan Milli Olimpiya Komitəsi bu işinin, təşəbbüsünün təbliğini davam etdirəcək, Azərbaycanın adı ilə bağlı olan bu proqramın gələcəkdə ən azı AYOF çərçivəsində daimi tətbiqinə BOK və AOK rəhbərliyini inandıra biləcəkdir.

Mediaya gəldikdə isə deyərdim ki, OCEP məktəb tədbirləri də respublikamızda kifayət qədər geniş təbliğini tapmadı. Doğrudur, internetdə, bizim sosial şəbəkədə, "Olimpiya dünyası" qəzetində bir çox materiallar getmişdir. Ancaq bunları görülən işlərlə müqayisədə yetərli saymaq olmaz.

OCEP proqramında iştirak edən məktəblər təhkim olunduqları Avropa ölkəsi haqqında məlumatlar toplamış, Azərbaycan mədəniyyəti və idmanı haqqında bilikləri yaymış, tədris və təbliğ məqsədli müxtəlif əyləncəli proqramlar hazırlayıb nümayiş etdirmişlər. Belə tədbirlərin nümayişindən sonra hər bir məktəb sosial şəbəkə vasitəsilə qardaşlaşdığı məktəblə məlumat və təcrübə mübadiləsini gerçəkləşdirmişdir. Seçilmiş məktəblərimizin yerinə yetirdikləri tədbirlər haqqında bəzi məlumatlar KİV-də qısa xəbər kimi yer almışdı. Onlardan bir qismini olduğu kimi verməklə bugünkü söhbətimizi tamamlamaq istəyirəm.

"Mikayıl Müşfiqin adını daşıyan 18 nömrəli tam orta məktəb Latviya məktəbi ilə qardaşlaşmışdır. Məktəbdə Latviyanın tarixini, coğrafiyasını, mədəniyyətini, idmanını öyrənmə işləri başlanmış və davam etməkdədir. Məktəb rəhbərliyinin, müəllimlərin və Milli Olimpiya Komitəsinin dəstəyi ilə məktəb ilk tədbirini nümayiş etdirmişdir".

"Tahir Həsənov adına 23 №-li məktəb OCEP 2019 proqramı çərçivəsində Ukraynanın İvano-Frankovsk vilayətində yerləşən "Yabluniv" liseyi ilə qardaşlaşmışdır. Burada da şagirdlər ilk tədbirlərini nümayiş etdirmişlər".

"Həyatda qazandığımız uğurlara görə məktəbə, müəllimə borcluyuq" devizi ilə rəhbər tutan 189-190 №-li orta məktəbin təşkil etdiyi əyləncəli proqram İsveç qardaşlaşmış məktəbinin şagirdlərinin böyük marağına səbəb olmuşdur. Müəllimlərin dəstəyi ilə şagirdlər indi bu istiqamətdə "Hər gün, hər saat, hər an mükəmməlliyə doğru" devizi ilə fəaliyyətlərini davam etdirirlər".

Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının tərkib hissəsi olan Olimpiya Mədəniyyəti və Təhsil Proqramı çərçivəsində İspaniya ilə əməkdaşlıq edən Arif Hüseynzadə adına 20 №-li məktəb-liseydə "Salam, İspaniya adlı təqdimat-sərgi mərasimi keçirilib".

"42 №-li məktəbin şagirdləri texnologiya dərsi zamanı Moldova mətbəxinə aid olan pleçinte yeməyini hazırlayıblar. Yeməyin hazırlanması və təqdimatı şagirdlər üçün çox maraqlı və əyləncəli olmuşdur. Balaca aşpazlar işin öhdəsindən uğurla gəlmişlər".

"162 №-li məktəb Litvanın Şyaulyay şəhərində yerləşən Yulius-Yanosis gimnaziyası ilə qardaşlaşmışdır. Məktəbdə 4R sinif şagirdlərindən ibarət "Bakı" və "Vilnüs" komandaları arasında "Şən startlar" idman yarışına hazırlıq məqsədi məşqlər keçirilir. Onların "Salam, Litva!" tədbiri də son dərəcə maraqlıdır".

"189-190 №-li orta məktəbdə OCEP 2019 proqramı ilə əlaqədar açıq dərs keçirilib. Açıq dərsdə uşaqlara Olimpiya Oyunları və OCEP 2019 proqramı haqqında geniş məlumat verilmişdir. Dərs ərzində bir neçə qrupa ayrılmış şagirdlər Olimpiya Oyunlarının əsas rəmzi olan Olimpiya halqaları və məşələni hazırlamışlar".

"132-134 №-li təhsil kompleksinin şagirdləri fransız dili biliklərini nümayiş etdirmiş, "Bonjour, laFrance!" tədbirini keçirmişlər".

Olimpiya Mədəniyyəti və Təhsil Proqramı çərçivəsində 220 №-li məktəb-liseyin 7-ci sinif şagirdləri ingilis dili dərsində Andorra dövləti və onun simvolları, coğrafiyası, təbiəti, heyvanat aləmi haqqında araşdırma apararaq maraqlı təqdimat hazırlamışlar. Şagirdlərin Olimpiya Oyunlarının tarixi və simvollarının nə dərəcədə bildiyini göstərmək üçün "kahoot online" qiymətləndirmə vasitəsindən istifadə edilmişdir. Hər bir şagird planşet vasitəsilə "kahoot.it" saytına daxil olub "OlympicGames: School-Lyceum H 220" sorğusuna qoşulmuşdur".

"111 №-li məktəbin müəllimləri Olimpiya Mədəniyyəti və Təhsil Proqramının iştirakçıları qismində Bakı Slavyan Universitetinin Bolqar Dili və Mədəniyyəti Mərkəzinə getmişlər. Burada onlar Bolqarıstanın adət-ənənələri ilə daha yaxından tanış olmuş və əldə etdikləri yeni məlumatları açıq dərslər vasitəsi ilə məktəblilərə çatdırmaqdadırlar".





"Milli Olimpiya Komitəsi və OCEP-in ekspertləri "Ayın məktəbi" müsabiqəsinin mart ayı üçün nəticələrini təqdim etmişdir. Göstərilən fəallıq, yüksək səviyyədə təşkil olunan tədbirlər və uğurlu əməkdaşlıq nəticəsində bir deyil, üç təhsil müəssisəsi eyni anda bu ada layiq görüldü. Həmin təhsil müəssisələri aşağıdakılardır: 1) 20 №-li məktəb-lisey; 2) 220 №-li məktəb-lisey; 3) Bakı Avropa Liseyi".

**Qarabağ idmanı**

*Azərbaycan idmanı tarixində özünəməxsus yeri olan idmançıların sayı hər zaman yetərincə olub. Keçmişdən bu günə qədər həmin insanların sorağı gəzib, haqqında xatirələr danışılıb, onların şərəfli ömür yolu örnək göstərilib. Yurdumuzun dilbər guşəsi sayılan Qarabağda da, belə idmançılar az olmayıb.*

*"Olimpiya dünyası" qəzetində "Qarabağ idmanı" rubrikası altında həmin insanlar barəsində vaxtaşırı yazılar dərc olunur. Bu sayımızda ömrünü idmana həsr edən veteran güləşçi Bəhmən Rəsulovdan bəhs edən yazını çoxsaylı oxucularımıza təqdim edirik.*

# Yaddaşlarda qalan güləşçi, yaxud kürəyi yerə dəyməyən "Qarabağ pələngi"



Bəhmən Cəlil oğlu Rəsulov 1930-cu il yanvarın 9-da Şuşa şəhərinin Qaybalı kəndində anadan olub. Doğulduğu kənddə dördüncü sinifə qədər təhsil alıb. O, dördüncü sinifi bitirdikdən sonra təhsilini Şuşanın Xəlfəli kəndində davam etdirib. Bəhmən Xəlfəli kəndində VII sinfi bitirdikdən sonra sənədlərini Şuşa Pedaqoji Məktəbinin Bədən Tərbiyəsi şöbəsinə verir və 1950-ci ildə bu məktəbdə təhsilini bitirib. O, müxtəlif uşaq evlərində tərbiyəçi-müəllim kimi fəaliyyət göstərib. Bəhmən müəllim 1963-cü ildən etibarən Şuşa 3 saylı orta-internat məktəbində bədən tərbiyəsi müəllimi işləyib.

Bəhmən Rəsulovun uşaqlıq illəri həmyaşıdları kimi acınacıqlı olub. Bu barədə yazının qəhrəmanı söhbət zamanı maraqlı xatirələrini bölüşdü. Həmin anları Bəhmən Rəsulov belə xatırlayır: "Böyük Vətən müharibəsi başlandığı vaxt atam Cəlil kişi minlərlə sovet adamı kimi Vətənin müdafiəsinə qalxmışdı. O dövrdə cəbhəyə yollananların ailə üzvləri istehsalat, kolxoz və sovxozlarda öz atalarını, ərlərini, qardaşlarını əvəz edirdi. Mən həmin ərəfədə 13-14 yaşlarında idim. Ailəmə kömək edir və Şuşa pedaqoji məktəbində təhsil alırdım. İdmana da böyük həvəsim var idi. Güləşi sevirdim. Vəziyyət elə gətirdi ki, pedaqoji məktəbin nəzdində fəaliyyət göstərən Azərbaycanda tanınmış güləşçi İsmayıl İsmayılovun təşkil etdiyi güləş idman bölməsinə daxil oldum. Tədricən məşqlərdə İsmayıl müəllimin güləş texnikasına yiyələnirdim. Bir neçə aydan sonra özümü güləş yarışlarında sınamağa başladım. 1952-ci ildə şəhər və vilayət çempionu adını qazandım".

Bəhmən müəllimlə söhbətdən aydın oldu ki, onun güləşə olan həvəsi tezliklə böyük uğurlara yol açıb. Belə ki, 1952-ci ildə o, DQMV-nin yığma komandasının tərkibində sərbəst güləş üzrə respublika birinciliyində çıxış edib. O, belə bir böyük miqyaslı yarışda ilk dəfə çıxış etməsinə baxmayaraq, yarımağır çəki dərəcəsində bir neçə güclü rəqibinə qalib gəlib.

Bəhmən Rəsulovun ən maraqlı görüşü dəfələrlə Azərbaycan çempionu olmuş, milliyyətcə yunan olan Alkivad Pavlidi ilə olub. "İndiyə qədər yadımdadır. Alkivadla görüşün ilk dəqiqələrindən hücuma keçib, onu çaş-baş saldım. Alkivad bunu gözləmirdi. Onun müdafiə olunmaqdan başqa çarəsi qalmamışdı. Fürsət düşən kimi onu qaldırıb, döşəyə çırpdım. Lakin hakim görüşü saxlamayıb davam etdirməyi tələb etdi. Zaldakı azarkeşlər hakimə irad tutaraq, çığır-bağır salmağa başladılar. Hamı öz narazılığını bildirirdi. Xüsusi ilə də görüşü izləyən "Kəllə" Sabir (Bakıda ali məktəblərin birində təhsil alan tanınmış şuşalı tələbə Sabir Zeynalova el arasında belə müraciət edirdilər. Ona görə ki, o, həm həddindən artıq savadlı idi, həm də dalaşanda güclü kəllə vururdu - Ə.N) hakimlərə çox kobud etiraz etdi. Axırda yarışı keçirən nümayəndələrdən biri Sabirə yaxınlaşıb - dəfələrlə Azərbaycan çempionunu rayondan gəlmiş bir güləşçiyə uduzmasına biz yol verə bilmərik, bu mümkün deyil, - deyib oradan uzaqlaşdı. Bir neçə dəqiqədən sonra görüş heç-heçə olaraq başa çatdı. Amma hamı mənim qalib gəldiyimi israr edirdi. Bununla da yarışda mükafatçılar sırasına düşdüm. Ən böyük uğurum isə tamaşaçılar tərəfindən "Qarabağ pələngi" deyə çağırışlar və alqışlar oldu", - deyə veteran güləşçi bildirdi.

## "Şuşada və Dağlıq Qarabağda onun kürəyini yerə vuran olmayıb"

Yarışdan sonra Azərbaycanın məşhur güləşçiləri və məşqçiləri bakılı Rza Baxşəliyev, gəncəli İsaq Cəfərov, naxçıvanlı İslam Hümbətov və başqaları Bəhmən Rəsulovu öz şəhərlərinə dəvət edirlər ki, onların güləş komandalarının tərkibində çıxış etsin. Lakin Bəhmən Rəsulovun ailəsi və şərait imkan vermir ki, o, yaxınlarından uzaq düşsün. Hətta Bəhmən Rəsulov Azərbaycanın sərbəst güləş üzrə yığma komandasının tərkibində Leninqradda keçirilən "İskra" İdman İdman Cəmiyyətlərinin SSRİ birinciliyinə belə gedə bilmir.

Şuşa rayon idman komitəsi teleqram almışdı. Ermənistanın yığma güləş komandası Dağlıq Qarabağ Muxtar Vilayətinin yığma güləş komandası ilə yoldaşlıq görüşü keçirməlidirlər. Həmin vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin yığma komandasının baş məşqçisi Əlixan Muradov idi. DQMV-nin İdman Komitəsinin rəhbərliyi yeni dünya çempionu olmuş məşhur Bakı "dinamo"çusu Artyom Teryanı Qarabağa dəvət etmişdilər. Artyom ona yeni hədiyyə edilmiş motosikleti ilə Bakıdan Stepanakertə gəlmişdi. O, Bəhmənin keçirdiyi görüşlərə tamaşa edib, bu idmançını bəyənmişdi. Ona görə də öz-özlüyündə fikirləşirdi ki, Şuşaya gedib Bəhməni də həmin heyətə cəlb etsin. Motosikletinə minib Şuşaya gəlir. Bəhməni peşə məktəbinin idman salonunda tapır və məsələni ona başa salır. Rəhbərlikdən icazə alıb, onu özü ilə Stepanakert şəhərinə gətirir. Bəhmən Rəsulov Artyom Teryanın rəhbərliyi, Əlixan Muradovun (o, milliyyətcə erməni idi-Ə.N.) məşqçiliyi ilə bir neçə gün məşq edir.

"Ermənistan yığma komandasının bütün üzvləri xüsusi avtobusla Stepanakert şəhərinə gəlmişdilər. Daha doğrusu, yoldaşlıq görüşünə hazırlaşırdılar. Onu da qeyd edim ki, onlar gələn kimi həmin avtobusla Şuşaya qalxıb, şəhəri gəzməyə başladılar.

Növbəti gün Stepanakertdə, Maksim Qorki adına teatrın səhnəsində yarış keçirilməli idi. Ermənistan güləş komandasının tərkibində yarımağır çəkidə "Tarzan" ləqəbli Arkadi Movsesyan da yer almışdı. Hamı ona böyük hörmətlə yanaşırdı. O, SSRİ birinciliklərinin iştirakçısı və mükafatçısı, eyni zamanda Ermənistan çempionu idi. Dağlıq Qarabağ komandasının tərkibində Şuşada hərbi hissədə əsgərlik edən rus millətindən olan Vladimir Saxarov da yer almışdı. Onun 110-kq çəkisi var idi. 46-ölçüdə ayaqqabı geyinirdi. Onun çəkisində güləşçi olmadığı üçün o, birbaşa qalib sayıldı. Onu da bildirim ki, Ermənistan ermeniləri ilə Qarabağ ermeniləri arasında çox soyuq münasibət var idi. Güləş yarışının keçirildiyi salon tamaşaçılarla dolmuşdu. Hətta Dağlıq Qarabağın rəhbər işçiləri də bu yoldaşlıq görüşünə baxmağa gəlmişdilər.

Diktor rus dilində məni güləş döşəyinə dəvət etdi. Mən döşək üzərinə çıxdım və qırmızı ipi sol ayağıma bağladım. Diktor yenə rus dilində Yerevandan gəlmiş "Tarzan" ləqəbli Arkadi Movsesyanı döşəyə dəvət etdi. Salonu gurultulu alqış sədaları bürüdü. O da göy rəngli ipi sol ayağına bağlayıb hakimə yaxınlaşdı. Görüş başlandı. O vaxt güləş yarışları 9 dəqiqədən ibarət idi. Hər hissədə 3 dəqiqədən bir 1 dəqiqəlik fasilə verilirdi. O, mənim qollarımdan tutub özünə tərəf çəkdi, qucaqlayıb yerə vurmaq istədi, ancaq bacarmadı. Onun əlindən çıxıb qabaq hissədən onu qucaqlayıb, başımın üzərinə qaldırıb döşəyə çırparaq, kürəyini yerə vurdum. Görüş heç bir dəqiqə də çəkmədi. Bütün zalda oturanlar ayaq üstə məni alqışladılar. Dağlıq Qarabağın İcraiyyə Komitəsinin sədr müavini gözəl insan Cəmil Bəylərov səhnəyə qalxıb, məni qucaqlayıb öpdü və təbrik etdi. Bundan başqa, Artyom Teryan da məni qucaqlayıb öpdü, yanılmadığını bildirdi və mənimlə şəkillər çəkdirdi. Daglıq Qarabağın qadınlardan ibarət yığma voleybol komandasının baş məşqçisi Roza Petrosyan "Tarzan"a qızıl gül buketi gətirmişdi. O, qalib gələcəyi təqdirdə gülləri ona bağışlayacaqdı. Amma buket ona qismət olmadı. Roza o gülləri "Tarzan"a yox, mənə verəsi oldu. İndi də bu tarixi görüşü yadıma salanda bir az qürrələnir, sevinir və toxtayıram" - deyə, veteran güləşçi həmin anları xatırladı.

Bəhmən Rəsulov bu uzun illər ərzində qazandığı idman nailiyyətlərinə və nəticələrinə görə aziz və doğma şəhəri olan Şuşanın və Dağlıq Qarabağ Muxtar Vilayətinin idman şərəfini layiqincə qorumuşdur. O, bir sıra orden və medallarla, diplomlarla, fəxri fərmanlarla, kuboklarla və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Veteran güləşçinin ən böyük uğuru o olub ki, Şuşada və Dağlıq Qarabağda onun kürəyini yerə vuran olmayıb.

Ömrünün 89-cu payızına qədəm qoyan bu tanınmış güləşçi - "Qarabağ pələngi" tez-tez keçmiş günlərini xatırlayır və doğma yurdu olan Şuşaya qayıdacağı günü səbrsizliklə gözləyir.

*Əbülqasım Novruzov,*
*Şuşa Uşaq Gənclər İdman-Şahmat məktəbinin direktoru*



# Yığma komandanın üzvləri "Judo Club 2012"də olublar

Cüdo üzrə böyüklərdən ibarət yığma komandanın üzvləri "Judo Club 2012"nin idman zalında olublar. Sentyabrın 25-də keçirilən tədbirdə klubun qonağı olan yığma komandanın əsas üzvləri Elmar Qasımov, Hidayət Heydərov və Məmmədəli Mehdiyevlə yanaşı, "Cüdo Klub 2012" İctimai Birliyinin sədri, Azərbaycan Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü, cüdo üzrə veteran ustalar arasında dünya və Avropa çempionatlarının dəfələrlə qalib və mükafatçısı Azər Əsgərov, "Judo Club 2012"nin baş məşqçisi Tərlan Həsənov, usta cüdoçular Zaur Paşayev, Yamən Fətiyev, Müşfiq Cəfərov, həmçinin, klubun gənc yetirməsi Murad Fətiyev və digər veteran idmançılar iştirak ediblər.

Görüş zamanı usta cüdoçular millimizin əsas üzvləri ilə birgə məşq edərək, öz təcrübələrini idmançılarla bölüşüblər. Rio-2016 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Elmar Qasımov, Avropa çempionu, dünya çempionatının bürünc medalçısı Hidayət Heydərov və IV İslam Həmrəyliyi Oyunlarının qalibi, ikinci Avropa Oyunlarının bürünc mükafatçısı Məmmədəli Mehdiyev klubun rəhbərliyinə və usta cüdoçulara minnətdarlıqlarını bildiriblər. Klubun usta cüdoçuları da, eyni zamanda onları klubda görməkdən məmnun olduqlarını bildirərək, idmançılara gələcək yarışlarda uğurlar arzulayıblar. Sonda yığma komandanın üzvləri və usta cüdoçular birgə xatirə şəkli çəkdiriblər.

Qeyd edək ki, milli komandanın təcrübəli idmançılarından olan Hidayət Heydərov və Məmmədəli Mehdiyev "Judo Club 2012"nin baş məşqçi Tərlan Həsənovun yetirmələridirlər.

Xatırladaq ki, son illərdə ölkə idmanında öz uğurları ilə diqqət çəkən "Judo Club 2012"də bundan əvvəl də bu cür tədbirlər təşkil olunub.

# Birinciliyin qalibləri müəyyənləşdi

Salyan Rayon Gənclər və İdman İdarəsi tərəfindən Uşaq Gənclər İdman Şahmat Məktəbində 15 sentyabr - Bilik Günü münasibətilə şahmat üzrə rayon birinciliyi keçirilib. Beynəlxalq şahmat qaydaları əsasında 5 yaş qrupu üzrə keçirilən rayon birinciliyində 74 zəka sahibi iştirak edib.

Tədbirdə çıxış edən Salyan Rayon Gənclər və İdman İdarəsinin rəisi Araz Hüseynov ölkəmizdə şahmatın inkişafı istiqamətində görülən işlərdən danışıb.



Qeyd edib ki, şahmat düşüncə tərzinin inkişafına, çevik qərar qəbul etmə, mürəkkəb şəraitdə taktika seçmək kimi vərdişlərin inkişafına təkan verir.

Rayon birinciliyinin qalibləri Salyan Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplomlarla təltif ediliblər.

# Cəlilabad güləşçiləri xatirə turnirində fərqləniblər

Salyan Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Olimpiya İdman Kompleksində sərbəst güləş üzrə idman ustası, dəşqaldırma üzrə SSRİ idman ustası, məşhur pəhləvan Yaşar Cavadovun xatirəsinə həsr olunmuş azyaşlı yeniyetmələr arasında VI respublika turniri keçirilib.

Turnirdə ümumilikdə 150 sərbəst güləşçi birincilik uğrunda mübarizə aparıb.



On bir çəki dərəcəsi üzrə keçirilən yarışda Cəlilabad komandası birinci olub. Lənkəran güləşçiləri yarışı ikinci, Salyan idmançıları isə üçüncü pillədə başa vurublar.

Sonda qaliblər Salyan Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom, medal və hədiyyələrlə təltif olunublar.

# FUTBOL

## Transfer pəncərəsinin yeni sakinləri



*(əvvəli ötən sayımızda)*

Almaniya Bundesliqası 2019-2020-ci illər yay transer pəncərəsində bir sıra futbolçuların keçidini rəsmiləşdirdi. Digər ölkələrdən fərqli olaraq alman klubları ölkə hüdudlarından kənarda çıxış edən az sayda futbolçunun transferini həyata keçirdi. Bundesliqada çıxış edən klublar daha çox öz aralarında futbolçuların "dəyişdirilməsinə" nail oldular. Avropanın nəhəng klubları sırasında yer alan "Bavariya" bu dəfə elə də fəallıq nümayiş etdirmədi. Halbuki, ötən mövsümün sonunda komandanın heyətində yer alan aparıcı futbolçular klubu tərk etmişdilər. Onların yerini doldurmaq üçün "pivəçilər" bəlkə də pullarına qənaət etdilər. Yaxud həmin yeni futbolçularsız da "Bavariya" hazırki mövsümdə ardıcıl çempionluğu təmin etmək, Çempionlar Liqasında əsas mükafata sahib olmaq niyətindədir. Bu hər halda klubun "gizli siyasəti"nin görünməyən tərəfləridir. Hər halda bu il "Bavariya" transferlərə cəmi 143,50 milyon avro xərcləyib. Klubun builki uğurlu transferləri Lukas Hernandes, Benjamin Pavard, Flipe Koutinyo, İvan Perişiç sayılır.

Bundesliqada "Bavariya"nın əsas rəqibi olan Dortmund "Borussiya"sı öz heyətini tamamilə dəyişə bildi. "Rur" təmsilçiləri ötən il start verdikləri transfer siyasətini bu il də davam etdirdilər. Hücum xəttini gücləndirən dortmundlular digər mövqeləri də səliqəyə sala bildilər. Pako Alkaser, Torqan Hazard, Julian Brandt, Mats Hummels və Niko Şulz klubun builki uğurları üçün mübarizəyə başlayıb.

Almaniyanın digər təmsilçisi "Leyptsiq" də transfer pəncərəsində rəqiblərindən geri qalmayıb. Çempionlar Liqasında mübarizə aparan və bu turnirə uğurla başlayan komanda Ademola Lukman, Kristofer Nkunku, Hannes Volf, Patrik Şik kimi futbolçuları heyətinə cəlb edib. Alman klubunun əsas məqsədi 3 il bundan əvvəl əldə etdiyi nəticəni bir qədər də yaxşılaşdıraraq, çempion olmaqdır.

Bundesliqanın 5 qat qalibi Leverkuzen "Bayer"i 8 ildən sonra yenidən bu uğuru təkrarlamaq niyətindədir. Qərbi almaniyalılar əvvəlki rəqiblərini qabaqlamaq üçün hazırki heyətlə yanaşı, yeni transfer etdiyi Kərəm Demirbay, Musa Diabi, Nadim Amiri, Daley Sinkqavenə güvənir. Klub builki transferlərə ümumilikdə 61 milyon avro xərcləyib. Hazırda qeyd etdiyimiz bu klublardan "Bayer" digər rəqiblərindən fərqli olaraq Bundesliqaya uğursuz start verib. Siyahıda yer almayan "Frayburq" "Bayer"dən daha yaxşı çıxış edir. Komanda 21 milyon avro xərcləsə də digər klublardan daha iddialı görünür.

*(ardı var)*

## Almaniya Bundesliqası 2019-2020

| Komanda | Gələnlər | Qiyməti (avro) | Gedənlər | Qiyməti (avro) |
|---|---|---|---|---|
| **Bavariya** | | | | |
| | Pavar (Ştuttqart) | 35 mln | Riberi (Fiorentina) | sərbəst agent |
| | Arp (Hamburq) | 3 mln | Robben | bitirib |
| | Perişiç (İnter) | icarə | Rafinya (Flamenqo) | sərbəst agent |
| | Koutinyo (Barselona) | azad agent | Sanşeş (Lil) | 20 mln. |
| | Hernandes (Atletiko) | 80 mln. | Hummels (Borussiya D.) | 30,5 mln |
| | Kyuizans (Borussiya M.) | 12 mln. | Fridl (Verder) | 3,5 mln. |
| | | | Xames (Real) | - |
| **Borussiya D** | | | | |
| | Hummels (Bavariya) | 30,5 mln | Diallo (PSJ) | 32 mln |
| | Şuls (Hoffenhaym) | 25 mln | Filipp (Dinamo Moskva) | 20 mln |
| | T.Hazard (Münhenqladbax) | 25,5 mln | Ayzek (R.Sosyedad) | 6,5 mln. |
| | Brandt (Bayer L.) | 25 mln | Rode (Ayntraxt) | 4 mln |
| | Alkaser (Barselona) | 21 mln | Tolyan (Sassuolo) | icarə |
| | | | Torpak (Verder) | icarə |
| | | | Kaqava (Saraqosa) | 3 mln. |
| | | | Şyurrle (Spartak M.) | icarə |
| | | | Passlak (Fortuna D) | icarə |
| **Leyptsiq** | | | | |
| | Volf (Zalsburq) | 12 mln | Kral (Köln) | sərbəst agent |
| | Kandido (Palmeyras) | 4 mln | Müller (Lutsern) | 500 min |
| | Ampadu (Çelsi) | İcarə | Bruma (PSV) | 15 mln. |
| | Lukman (Everton) | 18 mln. | | |
| | Nkunku (PSJ) | 13 mln | | |
| **Bayer Leverkuzen** | | | | |
| | Diabi (PSJ) | 15 mln | Kirşbaum (Venlo) | sərbəst agent |
| | Sinkqraveb (Ayaks) | 5 mln | Kor (Ayntraxt) | 8,5 mln |
| | Amiri (Hoffenhaym) | 9 mln | Brandt (Borussiya D.) | 25 mln |
| | Demirbay (Hoffenhaym) | 32 mln | Şrek (Qroningen) | 4000 min |

## "Neftçi" liderdən 10 xal geri qalır

***Futbol üzrə Azərbaycan Premyer Liqasında 6-cı turun oyunları keçirilib. Həftənin açılış oyununda "Qarabağ" "Sumqayıt"ı qəbul edib.Tofiq Bəhramov adına Respublika stadionunda təşkil olunan oyunun ilk yarısı meydan sahiblərinin minimal üstünlüyü ilə yekunlaşıb. Ağdam təmsilçisinin heyətində 45-ci dəqiqədə Dani Kintana fərqlənib. Qarşılaşmada son nöqtəni 90-cı dəqiqədə Mahir Emreli vurub - 2:0.***



Turun növbəti oyununda Qəbələ şəhər stadionunda eyniadlı komanda "Neftçi" klubunu qəbul edib. Tərəflərin cəhdlərinə baxmayaraq oyunun birinci hissəsində hesab açılmayıb. Fasilədən sonra isə qonaqlar ardıcıl olaraq fərqləniblər. Matçın 60-cı dəqiqəsində Tural Axundov hesabı açıb. Görüşün 72-ci dəqiqəsində Rauf Əliyev, 89-cu dəqiqədə isə Stiven Monroz meydan sahiblərini məyus edib.

Turun üçüncü matçında "Sabah" öz meydanında "Səbail" komandası ilə qarşılaşıb. "Bank Respublika Arena"da keçirilən görüş meydan sahiblərinin qələbəsi ilə başa çatıb - 3:0. Hesabı 78-ci dəqiqədə Coşqun Diniyev açıb. İkinci qolu 85-ci dəqiqədə Cavid İmamverdiyev vurub. Oyunda son nöqtəni isə 90-cı dəqiqədə Şakir Seyidov qoyub.

Turun sonuncu görüşündə "Keşlə" öz meydanında "Zirə"ni qəbul edib. Görüş meydan sahiblərinin qələbəsi ilə bitib (2:0).

İlk yarıda hesab açılmayıb. İkinci hissədə isə "Keşlə" iki baxımlı qola imza atıb. Qarşılaşmanın 53-cü dəqiqəsində Ruslan Qurbanov qapının uzaq küncünə qarşısıalınmaz zərbə endirib. Oyunun 64-cü dəqiqəsində isə Lorenso Frutos cinah ötürməsindən sonra topu qapıdan keçirib.

Altı turdan sonra turnir cədvəlinə 18 xalla "Qarabağ" klubu başçılıq edir. Aktivlərində 10 xalları olan "Səbail" və "Keşlə" ikinci və üçüncü yerləri bölüşürlər. Digər pillələrdə müvafiq olaraq "Neftçi" (8), "Zirə" (7), "Sumqayıt" (6), "Sabah" (5) və "Qəbələ" (4) yer alıb.

## *Danışılmış oyunlarla bağlı görüş keçirilib*

AFFA-nın inzibati binasında danışılmış oyunlarla bağlı görüş keçirilib. İki gün davam edən görüşdə FIFA nümayəndəsi Stefane Eiçenberger, UEFA nümayəndəsi Massimilano Miçenzi, AFFA-nın baş katibinin müavini Sərxan Hacıyev, UEFA-nın danışılmış oyunlarla bağlı Azərbaycan üzrə nümayəndəsi Seymur Səlimli iştirak ediblər. Azərbaycanın Gənclər və İdman Nazirliyinin nümayəndəsi, Hakimlər Komitəsinin, Peşəkar Futbol Liqasının əməkdaşları, hakimlər, hüquq-mühafizə orqanlarının, Azərbaycan Premyer Liqası və Birinci Divizionda çıxış edən klubların nümayəndələrinin də iştirak etdiyi görüşdə qonaqlar xüsusi təqdimatla çıxış edərək danışılmış oyunlar, onlarla mübarizə üsullarından danışıblar.



FIFA və UEFA nümayəndələri müvafiq olaraq təmsil etdikləri qurumların İntizam qaydalarında bu problemlə bağlı öz əksini tapmış müddəalar barədə məlumat verib, beynəlxalq təcrübədən nümunələr təqdim ediblər.

## Millimiz bir pillə irəliləyib

Qadın futbolçulardan ibarət milli komandaların FİFA reytinqi açıqlanıb.

Yığmamız son reytinqlə müqayisədə 1 pillə irəliləyib. Azərbaycan millisi 1345 xalla 75-ci pillədə qərarlaşıb. Qeyd edək ki, siyahıya ABŞ (2180) millisi başçılıq edir. Almaniya (2064) ikinci, Hollandiya (2036) yığması isə üçüncüdür.

## Messi "İnter"lə oyunda iştirak edəcək?

"Barselona"nın kapitanı Lionel Messi fərdi məşqlərə başlayıb. Argentinalı hücumçunun bərpa müddəti gözləniləndən tez keçir. Bu cür davam edəcəyi təqdirdə Messinin oktyabrın 2-də Çempionlar Liqası çərçiıəsində keçiriləcək "İnter"lə görüşün iştirak ərizəsində yer alacağı bildirilir. Bu barədə qərar oyun günü veriləcək. Qeyd edək ki, bir müddətdir zədədən əziyyət çəkən 32 yaşlı futbolçu İspaniya La Liqasının 6-cı turunda "Vilyareal"la görüşdə bu mövsüm ilk dəfə start heyətdə meydana çıxmış və yenidən zədələnmişdi.

## Parislilər "aslanlar"ın qabağına silahsız çıxacaqlar

Çempionlar Liqasının qrup mərhələsində "Qalatasaray"ın qonağı olacaq PSJ oyuna ciddi itkilərlə çıxacaq. Klubun rəsmi saytının İstanbul təmsilçsi ilə matç üçün açıqladığı iştirak ərizəsində aparıcı futbolçuların - hücumçular Neymar, Edinson Kavani və yarımmüdafiəçi Yulian Drakslerin adı yoxdur. Neymar və Draksler cəzalı durumda, Kavani isə zədəlidir.

Qeyd edək ki, bu gün keçiriləcək "Qalatasaray" - PSJ matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Dünya idmanı






## Məğlubun köynəyi qalibin köynəyindən baha satıldı

Sentyabrın 7-də rusiyalı Həbib Nurməhəmmədovla görüşən Dastin Porye rəqibin ona hədiyyə etdiyi köynəyi hərraca çıxarıb. UFC turnirində yüngül çəkidə məğlub olan fransalı döyüşçü həmin köynəyi “e-Bay”da ilkin qiymət olaraq 5 min dollara təklif edib. Lakin hərracın sonunda Həbibin köynəyi 60,2 min dollara satılıb. Xatırladaq ki, qaydalara əsasən UFC yarışında döyüşən idmançılar bir-birini köynəyini hərraca çıxarmalı, satışdan gələn gəliri isə xeyriyyə məqsədilə yaradılmış “The Good Fight” fonduna təqdim etməlidirlər. Elə bu məqsədlə Həbib Nurməhəmmədov da Dastin Poryenin köynəyini hərraca çıxararaq, 100 min dollara satmışdı. Maraqlıdır ki, niyə qalibin köynəyi məğlub idmançıdan daha az qiymətə satılsın?




## Futbolçu komanda yoldaşının saatını oğurlayıb

“Nitsa”nın fransalı hücumçusu Lami Diabi öz komanda yoldaşı Kasper Dolberqə məxsus qol saatını oğurlanmasında təqsirli bilinir. Artıq futbolçu etdiyi bu hərəkəti öz üzərinə götürüb. Araşdırmalara görə 70 min avro dəyərində olan saat oğurlandığı vaxt soyunub-geyinmə otağında Diabididən başqa heç kim olmayıb. Alınan məlumatlara görə, Diabi bu hərəkətdən peşman olduğunu və saatı Dolberqə qaytaracağını bildirib. Məlumat üçün bildirək ki, Dolberq bu yay 20 milyon avroya “Ayaks”dan “Nitsa”ya transfer olunub.

## Ayağı qırılan hakim sona qədər meydanı tərk etmədi

Hollandiya kuboku uğrunda keçirilən görüşlərin birində maraqlı hadisə baş verib. 1/64 final uğrunda keçirilən “Kvik Boys”-”Katveyk” matçında baş hakim Rob Diperink ayağını sındırıb. Xoşbəxtlikdən hadisə qarşılaşmanın sonlarına təsadüf edib. Lakin iddialı ədalət təmsilçisi görüşü tərk etməyib, hətta əlavə 3 dəqiqə artırıb. Görüş 2:2 hesabı ilə bitdiyi üçün komandalar daha yarım saat oynamalı olublar. Həmin hissələri də Diperink özü idarə edib. Xatırladaq ki, həmin görüşdə Katveyk 3:2 hesabı ilə qalib gəlib. Hollandiyalı baş hakim matçdan sonra xəstəxanaya çatdırılıb, müayinədən sonra məlum olub ki, onun pəncəsi qırılıb.





*Üfüqi*

3. İdman geyimi firması, 5. Bundesliqa təmsilçisi, 6. Azərbaycan ... Federasiyası, 7. “Sabah”ın baş məşqçisi, 8. “Qalatasaray”ın kolumbiyalı futbolçusu, 10. Keçmiş pilot...Şumaxer, 13. Beynəlxalq Bodibildinq Federasiyasının prezidenti.

*Şaquli*

1. Tokio-2020 Yay Olimpiya Oyunlarında futbol yarışlarının keçiriləcəyi şəhərlərdən biri, 2. Velosiped idmanında yarış növü, 4. Oyundan kənar vəziyyət, 9. Qarışıq döyüş növləri üzrə amerikalı idmançı Kolbi..., 11. XXI Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər, 12. Şərq-əlbəyaxa döyüş növü, 14. “Tottenhem”in futbolçusu.

## Azarkeş matçda milyon dollar topladı




Amerikalı Kerson Kinq pivə almaq üçün qaldırğı bannerdən sonra hesabına milyon dollar pul toplayıb. Hadisə amerika futbolu üzrə tələbələr arasında keçirilən görüş zaman baş verib. Kerson Kinq “Ayova Hokays”-”Ayova Steyt Çiklons” arasında keçirilən görüşün fasiləsində pivə almaq istəyib, lakin onun pulu çatmayıb. Tələbə fanat öz istəyi üçün zarafatyana “Ayova əfsanəsi” adlı bannerə öz elektron hesabını yazıb. Fasilədə əldə etdiyi milyon dollardan cəmi, 600-ünü götürən Kersonq Kinq qalan məbləği uşaq xəstəxanasının fonduna köçürüb. Bundan başqa, pivə istehsal edən “Busch Beer” şirkəti onun şəkli və “Ayova əfsanəsi” adı altında məhsul hazırlayıb, Kersonqla bir illik, istədiyi qədər pivə ilə təmin etmək barədə müqavilə bağlayıb.

olimpnews.az - sizin saytınız




Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətov və məktəbin kollektivi həndbol üzrə kişilərdən ibarət Azərbaycan milli komandasının baş məşqçisi

**Hikmət Abdullayevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi həndbol üzrə kişilərdən ibarət Azərbaycan milli komandasının baş məşqçisi

**Hikmət Abdullayevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Qənbər Ağayev, Mobil İsmayılov, Fazil Hadıbəyov, Zabit İbayev, Əlikram Əliyev, Əli Əlifov, Yavər Həşimov, Aslan Şirəliyev və Murad Fərzəliyev Ələmdar Məmmədova, əzizi

**Aydın Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19